Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 318 **QƏRAR** Bakı şəhəri, 5 oktyabr 2015-ci il

# "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 31 may tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması və əşya əmlakı ilə təminat normaları"nda dəyişikliklər edilməsi barədə

"Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 yanvar tarixli 15 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında Əsasnamə"də və "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri"ndə dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 iyul tarixli 186 nömrəli fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması və əşya əmlakı ilə təminat normaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 31 may tarixli 80 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 394; 2010, № 1, maddə 55) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissədə "1-26 nömrəli" sözləri "1-31 nömrəli" sözləri ilə əvəz edilsin.

2. Həmin qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması və əşya əmlakı ilə təminat normaları" üzrə:

2.1. mətn üzrə ismin müvafiq hallarında verilmiş "Sərhəd Gözətçi Gəmilər Dəstəsində" sözləri ismin müvafiq hallarında "Sahil Mühafizəsində" sözləri ilə, "Sərhəd Gözətçi Gəmilər Dəstəsinin" sözləri "Sahil Mühafizəsinin" sözləri ilə, "SGGD" abreviaturası "SM" abreviaturası ilə əvəz edilsin;

2.2. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin generallarının hərbi geyim və əşya əmlakı ilə təchizatının 1 nömrəli norması"na aşağıdakı məzmunda 13-1-ci hissə əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 13-1. | Kamuflyaj rəngli xüsusi istiləşdirilmiş gödəkcə, kombinezonla | 1 dəst | 3 il |

2.3. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin admirallarının hərbi geyim və əşya əmlakı ilə təchizatının 2 nömrəli norması"na aşağıdakı məzmunda 15-1-15-3-cü və 17-1-ci hissələr əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 15-1. | Göy rəngli yay səhra gödəkcəsi (poqonlarla), yay şalvarı və furajka | 1 dəst | 2 il |
| 15-2. | Göy rəngli qış səhra gödəkcəsi (poqonlarla) və qış şalvarı | 1 dəst | 2 il |
| 15-3. | Göy rəngli istiləşdirilmiş səhra gödəkcəsi (poqonlarla) və istiləşdirilmiş şalvar | 1 dəst | 2 il |
| 17-1. | Qara rəngli uzunboğaz botinka | 1 cüt | 1 il |

2.4. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin zabitlərinin, gizirlərinin və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hərbi geyim və əşya əmlakı ilə təchizatının 3 nömrəli norması" üzrə:

2.4.1. aşağıdakı məzmunda 13-1-ci hissə əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 13-1. | Kamuflyaj rəngli xüsusi istiləşdirilmiş gödəkcə, kombinezonla | 1 dəst | 3 il |

2.4.2. 19-cu hissədə "2 il" sözləri "1 il" sözləri ilə əvəz edilsin;

2.4.3. 32-ci hissədə "Kamuflyaj (dəniz dalğası) rəngli futbolka" sözləri "Kamuflyaj (dəniz dalğası) və ya qara rəngli futbolka" sözləri ilə, "2 il" sözləri "1 il" sözləri ilə əvəz edilsin;

2.5. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsində zabitlərin, miçmanların və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hərbi geyim və əşya əmlakı ilə təchizatının 4 nömrəli norması"na aşağıdakı məzmunda 13-1- 13-3-cü və 15-1-ci hissələr əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 13-1. | Göy rəngli yay səhra gödəkcəsi (poqonlarla), yay şalvarı və furajka | 1 dəst | 2 il |
| 13-2. | Göy rəngli qış səhra gödəkcəsi (poqonlarla) və qış şalvarı | 1 dəst | 2 il |
| 13-3. | Göy rəngli istiləşdirilmiş səhra gödəkcəsi (poqonlarla) və istiləşdirilmiş şalvar | 1 dəst | 2 il |
| 15-1. | Qara rəngli uzunboğaz botinka | 1 cüt | 1 il |

2.6. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin qadın zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hərbi geyim və əşya əmlakı ilə təchizatının 5 nömrəli norması" üzrə:

2.6.1. aşağıdakı məzmunda 13-1-ci hissə əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 13-1. | Kamuflyaj rəngli xüsusi istiləşdirilmiş gödəkcə, kombinezonla | 1 dəst | 3 il |

2.6.2. 19-cu hissədə "2 il" sözləri "1 il" sözləri ilə əvəz edilsin;

2.6.3. 28-ci hissəyə "Qara rəngli iplik triko" sözlərindən sonra "Kamuflyaj (dəniz dalğası) və ya qara rəngli futbolka" sözləri əlavə edilsin;

2.7. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsində qadın zabit, miçman və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hərbi geyim və əşya əmlakı ilə təchizatının 6 nömrəli norması"na aşağıdakı məzmunda 13-1- 13-3-cü və 16-1-ci hissələr əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 13-1. | Göy rəngli yay səhra gödəkcəsi (poqonlarla), yay şalvarı və furajka | 1 dəst | 2 il |
| 13-2. | Göy rəngli qış səhra gödəkcəsi (poqonlarla) və qış şalvarı | 1 dəst | 2 il |
| 13-3. | Göy rəngli istiləşdirilmiş səhra gödəkcəsi (poqonlarla) və istiləşdirilmiş şalvar | 1 dəst | 2 il |
| 16-1. | Qara rəngli uzunboğaz botinka | 1 cüt | 1 il |

2.8. "Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının "Sərhəd Qoşunları" fakültəsinin kursantlarının hərbi geyim və əşya əmlakı ilə təchizatının 7 nömrəli norması" üzrə:

2.8.1. adında "Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının "Sərhəd Qoşunları" fakültəsinin" sözləri "Dövlət Sərhəd Xidmətinin Akademiyasının" sözləri ilə əvəz edilsin;

2.8.2. 1-ci hissəyə "Qeyd" sözündən sonra "1." rəqəmi və aşağıdakı məzmunda 2-ci və 3-cü hissələr əlavə edilsin:

"2. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara ağ rəngli furajka 2 ədəd üzlüklə.

3. Dənizçi ixtisasları üzrə təhsil alan qadın kursantlara ağ rəngli şlyapa.";

2.8.3. 2-ci hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli pilotka.";

2.8.4. 3-cü hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli süni və ya təbii xəzdən qulaqlı papaq.";

2.8.5. 4-cü hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli qış paltosu (poqonlarla).";

2.8.6. 5-ci hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli demisezon palto (poqonlarla) və şalvar.";

2.8.7. 6-cı hissəyə "Qeyd" sözündən sonra "1." rəqəmi və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli isti gödəkcə.";

2.8.8. 7-ci hissəyə "Qeyd" sözündən sonra "1." rəqəmi və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli istiləşdirilmiş gödəkcə və istiləşdirilmiş şalvar.";

2.8.9. 8-ci hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli yaxası üçbucaq şəkilli yarımyun köynək (poqonlarla).";

2.8.10. 9-cu hissədə " şalvar" sözü "2 (iki) ədəd şalvar" sözləri ilə əvəz edilsin və həmin hissəyə "Qeyd" sözündən sonra "1." rəqəmi və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli tujurka (kəmərciklə) və 2 (iki) ədəd şalvar.";

2.8.11. 10-cu hissəyə "Qeyd" sözündən sonra "1." rəqəmi və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli demisezon gödəkcə (poqonlarla) və 2 (iki) ədəd şalvar.";

2.8.12. 11-ci hissədə "şalvar" sözü "2 (iki) ədəd şalvar" sözləri ilə əvəz edilsin və həmin hissəyə "Qeyd" sözündən sonra "1." rəqəmi və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara ağ rəngli tujurka (kəmərciklə) və şalvar.";

2.8.13. 12-ci hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli qış səhra gödəkcəsi (poqonlarla) və qış şalvarı.";

2.8.14. 13-cü hissəyə "Qeyd" sözündən sonra "1." rəqəmi və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli yay səhra gödəkcəsi (poqonlarla) və yay şalvarı furajka ilə.";

2.8.15. 18-ci hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara ağ rəngli yay tuflisi.";

2.8.16. 21-ci hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara ağ rəngli uzunqol köynək.";

2.8.17. 22-ci hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara ağ rəngli qısaqol köynək.";

2.8.18. 24-cü hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli qalstuk.";

2.8.19. 26-cı hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli şərf.";

2.8.20. 28-ci hissəyə "Qeyd" sözündən sonra "1." rəqəmi və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy zolaqlı dənizçi maykası.";

2.8.21. 30-cu hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy zolaqlı uzunqol isti dənizçi köynəyi.";

2.8.22. 41-ci hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli bel kəməri.";

2.8.23. 42-ci hissəyə "Qeyd" sözündən sonra "1." rəqəmi və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli şalvar qayışı.";

2.8.24. 43-cü hissəyə aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd. Dənizçi ixtisasları üzrə təhsil alan kursantlara göy rəngli çanta.";

2.9. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (SM-dən başqa) müddətli həqiqi hərbi xidmət əsgər və çavuşlarının hərbi geyim və əşya əmlakı ilə təchizatının 8 nömrəli norması" üzrə:

2.9.1. 8-ci hissəyə "Qeyd" sözündən sonra "1." rəqəmi və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Soyuq iqlimli rayonlarda və dağlıq bölgələrdə yerləşən hərbi hissələrdə xidmət aparan hərbi qulluqçulara istiləşdirilmiş gödəkcə və istiləşdirilmiş şalvar xidmət müddətinə 2 (iki) dəst verilir.";

2.9.2. aşağıdakı məzmunda 8-1-ci hissə əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8-1. | Kamuflyaj rəngli xüsusi istiləşdirilmiş gödəkcə, kombinezonla<br>**Qeyd.** Dövlət Sərhəd Xidməti rəisinin əmri ilə təyin olunmuş xüsusi təyinatlı bölmələr üçün nəzərdə tutulur | 1 dəst | xidmət müddətinə |

2.9.3. 9-cu hissənin "Qeyd"inin 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. 1 dəst mərasim geyim forması üçün mövsümə uyğun səhra geyim forması verilir;";

2.9.4. 12-ci hissədə "Kamuflyaj (dəniz dalğası) rəngli trikotaj futbolka" sözləri "Kamuflyaj (dəniz dalğası) və ya qara rəngli futbolka" sözləri ilə, "3 ədəd" sözləri "4 ədəd" sözləri ilə əvəz edilsin;

2.9.5. 16-cı hissədə "24 cüt" sözləri "36 cüt" sözləri ilə əvəz edilsin;

2.10. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsində müddətli həqiqi hərbi xidmət matros və çavuşlarının hərbi geyim və əşya əmlakı ilə təchizatının 9 nömrəli norması"na aşağıdakı məzmunda 14-1-ci -14-3-cü və 17-1-ci hissələr əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 14-1. | Göy rəngli yay səhra gödəkcəsi (poqonlarla), yay şalvarı və furajka | 2 dəst | xidmət müddətinə |
| 14-2. | Göy rəngli qış səhra gödəkcəsi (poqonlarla) və qış şalvarı | 2 dəst | xidmət müddətinə |
| 14-3. | Göy rəngli istiləşdirilmiş səhra gödəkcəsi (poqonlarla) və istiləşdirilmiş şalvar | 1 dəst | xidmət müddətinə |
| 17-1. | Qara rəngli uzunboğaz botinka | 4 cüt | xidmət müddətinə |

3. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin şagirdlərinin geyim və əşya əmlakı ilə təchizatının 27 nömrəli norması" təsdiq edilsin (əlavə olunur).

4. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin şagirdlərinin yataq ləvazimatı ilə təchizatının 28 nömrəli norması" təsdiq edilsin (əlavə olunur).

5. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin şagirdlərinin əl-üz, sanitariya-gigiyena və hamamda yuyunma ehtiyacları üçün sabunla təchizatının 29 nömrəli norması" təsdiq edilsin (əlavə olunur).

6. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin camaşırxana ehtiyacları üçün yuyucu vasitələrlə təchizatının 30 nömrəli norması" təsdiq edilsin (əlavə olunur).

7. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Hərbi Orkestri hərbi qulluqçularının mərasim geyim və əşya əmlakı ilə təchizatının 31 nömrəli norması" təsdiq edilsin (əlavə olunur).

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərara edilmiş əlavənin tam mətni ilə www.azerbaijan-news.az və cabmin.gov.az saytlarında tanış ola bilərsiniz.*